# İQTİSADİYYAT

UOT 339.9; 339.9:061(100)

## BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏRİN QLOBAL ASPEKTLƏRİ VƏ TƏNZİMLƏNMƏSİ XÜSUSİYYƏTLƏRİ

**H.H.ASLANOV**
***Bakı Dövlət Universiteti***
***Dosent1966@mail.ru***

*Dünya ölkələri arasında iqtisadi münasibətlərin inkişafının müasir mərhələsində baş verən keyfiyyət dəyişiklikləri onun qlobaşlaşmasına səbəb olur. Qlobal iqtisadiyyatda rəqabət güclənir. O, dünya iqtisadiyyatının inkişafında keyfiyyətcə yeni mərhələ olmaqla vahid qlobal bazarın yaranmasına xidmət edir. Qloballaşma iqtisadi həyatın bütün sferalarını əhatə edir. Bu, həm də dünya iqtisadiyyatında müəyyən problemlər yaradır. Belə olan halda, dünya təsərrüfat sistemində gedən qloballaşma prosesinin tələblərinə cavab verən mükəmməl tənzimlənmə sisteminin yaradılması aktual olaraq qalır. Bunsuz dünya iqtisadiyyatının səmərəli inkişafına nail olmaq mümkün deyildir.*

**Açar sözlər:** beynəlxalq iqtisadi münasibətlər, iqtisadi inteqrasiya, iqtisadi qloballaşma, qlobal iqtisadi problemlər, tənzimlənmə

Beynəlxalq iqtisadi əlaqələr uzun inkişaf yolu keçmişdir. Tarixi faktlar göstərir ki, bu əlaqələrin ilkin forması olan beynəlxalq ticarət əlaqələri qədim dövlətlər arasında da mövcud olmuşdur. İlk dövrlərdə beynəlxalq ticarət əlaqələri ölkələrin təbii-iqtisadi ehtiyatlarla təmin olunma səviyyəsinin müxtəlifliyinə əsaslanırdı. Belə ki, bu müxtəliflik ayrı-ayrı ölkələrin üstünlüyə malik olduqları təbii-iqtisadi ehtiyatlara müvafiq şəkildə məhdud sayda məhsul istehsalında ixtisaslaşmalarını və həmin məhsulların istehsalında yüksək əmək məhsuldarlığına nail olmalarını şərtləndirirdi. Bu isə onların digər məhsullara olan tələbatlarını ödəmək məqsədilə bu məhsulların xarici ölkələrlə qarşılıqlı mübadilə əsasında özlərində istehsal olunmayan və az istehsal olunan məhsullara dəyişdirmələrinə şərait yaradırdı.

XVI-XVII əsrlərdə manufaktura istehsalının inkişafı ölkələrarası ticarət-iqtisadi əməkdaşlığın genişlənməsinə təkan verməklə beynəlxalq ticarəti keyfiyyətcə yeni səviyyəyə yüksəltmiş oldu ki, bu da BƏB-nün (beynəlxalq

əmək bölgüsü) daha da dərinləşməsinə və xarici ticarət-iqtisadi əlaqələrin milli təkrar istehsal proseslərinin əsas amllərindən birinə çevrilməsinə səbəb oldu. Lakin bu dövrdə beynəlxalq iqtisadi əməkdaşlığa çox məhdud subyektlər cəlb olunurdu.

XVIII-XIX əsrlərdə baş vermiş sənaye inqilabları nəticəsində iri maşınlı sənaye istehsalının yaranması və yayilması isə milli təsərrüfatların sərhədlərinin genişiənməsinə və XIX əsrin sonuna qlobal miqyas almasına gətirib çıxardı. Belə ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində inkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdən mal ixracı ilə yanaşı kapital ixracı da genişlənməyə və adi hala çevrilməyə başladı. Bu proses beynəlxalq iqtisadi əməkdaşlığın ticarət sistemindən istehsal-ticarət sisteminə keçidinin obyektiv əsasını təşkil edirdi. Bu əsasda həmin dövrdə iri TMK-lar (transmilli korporasilar) qurulmağa və beynəlxalq istehsal-koorperasiya əlaqələri meydana çıxmağa başladı, beynəlxalq kapital bazarı formalaşdı, təsərrüfat həyatının beynəlmilləşməsi daha da intensivləşdi.

Müasir dövrdə BƏB-ün yeni əsasları üzərində dərinləşməsi, nəqliyyat və rabitə vasitələrinin inkişafı ölkələr arasında mal və xidmətlərin, istehsal amillərinin hərəkətinin daha da sürətlənməsinə, yüklərin və sərnişinlərin daşınması xərclərinin və müddətinin xeyli dərəcədə azalmasına səbəb olmuşdıır [1, 185].

Telekommunikasiya vasitələrində baş vermiş inqilabi dəyişikliklər nəticəsində isə çox qısa bir zaman ərzində istənilən məsafədən zəruri məlumatları əldə etmək və qəbul olunmuş qərarları lazımi yerlərə çatdırmaq imkanı yaranmışdır ki, bu da beynəlxalq investisiyaları, istehsalın koorperasiyalaşmasını, marketinq təşkilini, ayrı-ayrı dövlətlərin makroiqtisadi siyasətlərinin qarşılıqlı şəkildə uyğunlaşdırılmasını asanlaşdırırdı. Bundan əlavə, istehsal texnologiyalarının ötürülməsi prosesi daha da sürətlənmiş və xarici təsərrüfatçılıq təcrübəsinin öyrənilməsi imkanları da genişlənmişdir.

Müasir dövrdə beynəlxalq iqtisadi əlaqələrin əsas formalarının beynəlxalq ticarət, kapitalın beynəlxalq hərəkəti, əhali və əmək ehtiyatlarının beynəlxalq miqrasiyası, elmi-texniki əməkdaşlıq, transmilli iqtisadi fəaliyyətin miqyasları da əvvəllər misli görünməmiş həddə gəlib çatmış və onların dünya təsərrüfat sisteminin inkişafında yeri və rolunda keyfiyyət dəyişiklikləri baş vemıişdir [3,96].

Tədqiqat göstərir ki, İkinci dünya müharibəsindən sonra kapitalın beynəlxalq hərəkətinin miqyası daha çox genişlənmişdir. Belə ki, BMT-nin (Birləşmiş Millətlər Təşkilatı), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) məlumatlarına görə həmin dövrdən bəri xarici kapital qoyuluşları hər on ildə dörd dəfə, birbaşa investisiyalar isə hər 6-7 ildə iki dəfə artmışdır. Hazırda kapital ixracının artım sürəti həm ümumdünya məcmu məhsulunun, həm də mal ixracının artım sürətindən yüksəkdir. XX əsrin son onilliyində kapital ixracının ümumi həcmi 5 trilyon ABŞ dollarına çatmışdır. 1995-ci ildə kapital ixracı 315 milyard ABŞ dolları, 2006-cı ildə isə təxminən 650 milyard ABŞ dolları, 2013-cü ildə təxminən 1 trl. 500 mlrd. ötüb keçmişdir. Kapital

axınlarının güclənməsi müxtəlif ölkələrin milli iqtisadiyyatlarında bir sıra keyfiyyət dəyişikliklərinin baş verməsinə-milli təsərrüfatların strukturunun dəyişməsinə, onların texnoloji və iqtisadi fəaliyyətinin stimullaşdırılmasına və s.-yə çox təsir göstərmişdir.

Son dövlərdə xarici investisiyalara münasibətdə liberallaşma meylləri daha da güclənmişdir. Belə ki, son illərdə bir çox ölkələrdə birbaşa xarici investisiyaların təşviq olunması üçün genişmiqyaslı maliyyə və digər tədbirlər sistemi həyata keçirilir. Bunun nəticəsidir ki, uzunmüddətli xarakter daşıyan birbaşa investisiyalar beynəlxalq əlaqələr sistemində getdikcə daha çox müəyyənedici rol oynayır [2, 210]. Belə ki, dünya təsərrüfatında birbaşa xarici kapital qoyuluşlarının orta illik məbləği artıq 300 milyard ABŞ dollarını ötüb keçmişdir. 2013-cu ildə onun illik məbləği 385 milyard ABŞ dolları, ümumi məbləği isə 3,6 trilyon ABŞ dolları olmuşdur.

Qeyd olunanlarla yanaşı, xarici investisiyaların artması və borc kapitalının beynəlmilləşməsi nəticəsində dövlətlərarası kredit təşkilatları sistemi yaradılmış və nəhəng beynəlxalq pul bazarı formalaşmışdır.

Bütün bunlar göstərir kı, kapitalın beynəlxalq hərəkəti müasir dövrdə dünya təsərrüfat əlaqələrinin genişlənməsi və inkişafının mühüm amilinə çevrilmişdir.

Müasir dövrdə xarici ticarətin strukturunda da bir sıra dəyişikliklər baş verır. Beynəlxalq ticarət dövriyyəsinin əmtəə tərkibində son məhsulun payının artması prosesi müşahidə olunur. Belə ki, hazırda beynəlxalq ticarət dövriyyəsinin təxminən 2/3 hissəsi son məhsulun payına düşür. Koorperasiya əlaqələri çərçivəsində detallar, aqreqat, qovşaqlar və s. bu kimi mal göndərişi isə beynəlxalq ticarət dövriyyəsinin təqribən yarısını təşkil edir. Bütün bunlar isə müasir dövrdə dünya təsərrüfat sisteminin və beynəlxalq iqtisadi münasibətlərin inkişafında beynəlxalq istehsal və elmi-texniki əməkdaşlığın artan rolunu əks etdırir.

2013-cü ildə mal və xidmətlərlə beynəlxalq ticarət 15,6 trilyon ABŞ dolları təşkil etmiş, onun orta illik artım surəti 6-8 faiz olmuşdur (məlumat üçün qeyd edək ki, sənayenin artım sürəti isə cəmi 2-2,5 faiz olmuşdur). Müasir dövrdə mal və nəqliyyat vasitələrlə xarici ticarət ümumdünya məcmu məhsulunun təqribən 1/3 hissəsini təşkil edir.

Son dövrlərdə elmi və texniki biliklərə mübadilə beynəlxalq ticarətdə aparıcı rol oynayır. Elm və texnika sahəsində əmək bölgəsinin bütün formalarının dərinləşməsinin başlıca stimullarından biri elmi və texnikı tədqiqatların əhəmiyyətli dərəcədə bahalaşmasıdır. Bu prosesin inkişafında başlıca meyl ondan ibarətdir ki, hər 7-10 ildə elmi tədqiqatlara sərf edilən xərclər ikiqat artır. Xərclərin bu cür artımı isə hətta inkişaf etmiş dövlətləri belə çətinliklərlə üzləşdirir.

Nəzərə almaq lazımdır ki, beynəlxalq elmi-texniki əlaqələr geniş miqyasda münasibətləri əhatə edir. Buraya elmi-texniki məlumatlarla, alimlərlə, mütəxəssislərlə, tələbələrlə mübadilə, kadrların hazırlanması sahəsində

əməkdaşlıq, ixtiraların, texnologiyaların, «nou-hou»-ların lisenziyalar əsasında mübadiləsi, birgə tədqiqatların həyata keçirilməsi, sifariş üzrə elmi-texniki işlərin yerinə yetirilməsi, yeni texnika və texnologiyaların hazırlanması və satışı sahəsində birgə sahibkarlığı nəzərdə tutan elmi-istehsal kooperasiyası aid edilə bilər.

Qeyd edilməlidir ki, eimi-texniki biliklərlə mübadilə hazırda çox səmərəli əməkdaşlıq sahəsinə çevrilmişdir. Məsələn, ABŞ 2006-2013-cü illər ərzində patent, lisenziya və müəlliflik hüququnun satışından 56 milyard dollar vəsait əldə etmişdir. Elmi və texniki biliklərlə mübadilə elmtutumlu texnologiyalara keçidi sürətləndirir. Elmtutumlu texnologiyalara keçid inkişaf etmiş ölkələrin təbii resurslara olan tələbatını azaldır. Bunun nəticəsində beynəlxalq ticarətdə kənd təsərrüfatı və hasilat sənayesi məhsullarının payı durmadan azalır. Belə ki, 1937-ci ildə beynəlxalq ticarətdə bu məhsulların payı 61 faiz olduğu halda, 1960-cı ildə 45 faiz, 1996-cı ildə isə cəmi 23, 2013-cü ildə isə 11 faiz olmuşdur.

Xidmət sferasının üstün artımı (ildə 3,4 faiz) nəticəsində müasir dövrdə beynəlxalq ticarətdə xidmətlərin ixracı da mühüm rol oynayır.

XX əsrin ikinci yarısından başlayaraq əhalinin kütləvi miqrasiya da beynəlxalq iqtisadi münasibətlərdə mühüm rol oynamaqdadır. Daha dəqiq desək, müasir dövrdə işçi qüvvəsinin beynəlxalq miqrasiyası kapital və texnoloji amillər də daxil olmaqla istehsal amillərinin beynəlxalq hərəkəti anlayışının mühüm tərkib hissəsinə çevrilmişdir. Müasir dövrdə kortəbii əhali miqrasiyası əsas etibarı ilə «mütəşəkkil miqrasiya» ilə əvəz olunmuşdur. Əhalinin miqrasiyasının müasir səviyyəsinə keçmiş sosialist blokunun dağılması və TMK-ların fəaliyyətinin güclənməsi çox böyük təsir göstərmişdir. Bununla yanaşı, müasir dövrdə işçi qüvvəsinin keyfiyyəti yüksəlmiş və ixtisaslaşması diversifikasiyaya uğramışdır. İnvestisiya qoyuluşları əsas və dövriyyə kapitalına deyil, eyni zamanda insan kapitalına yönəldilir. Belə ki, yüksək təhsil səviyyəsi və yüksək ixtisaslaşma, müvafiq olaraq, yüksək əmək haqqı təmin edir [4, 130].

Müasir dünya təsərrüfat sistemində transmilli şirkətlərin də rolu getdikcə artmaqdadır. Belə ki, müasır dövrdə getdikcə TMK-ların sayı artır, fəaliyyət dairələri genişlənir və imkanları güclənir ki, bu da təsərrüfat həyatının beynəlmilləşməsinin daha da dərinləşməsinə səbəb olmuşdur. Son illərin məlumatlarına görə dünyada 50 minə yaxın TMK fəaliyyət göstərir və onlar öz ölkələri xaricində yerləşən 300 min törəmə müəssisəyə nəzarət edirlər. XX əsrin son 30 ilində TMK-ların sayı 7 dəfə artmışdır (1970-ci ildə 7 min belə kompaniya qeydə alınmışdır). 100 ən böyük TMK-nın mülkiyyətinin 40 faiz başqa ölkələrin ərazisində yerləşmişdir. Hesablamalara görə, TMK-ların satışının həcmi illik olaraq 7 trilyon ABŞ dollarından artıqdır. Onların işçi heyəti 75 milyon nəfərə çatır ki, bu da dünya üzrə məşğul olan əhalinin 1/10 hissəsini təşkil edir.

TMK-ların fəaliyyətinin ğenişlənməsi nəticəsində mal və xidmətlərin istehsalı və satışının bilavasitə xarici bazarlarda təşkil edilməsi meyli güclənir. Belə ki, 2012-ci ildə dünya üzrə birbaşa mal və xidmət ixracı 7,3 trilyon ABŞ dollan olduğu halda, xarici bazarlar vasitəsilə təşkil olunmuş satışın həcmi 10,2 trilyon ABŞ dolları olmuşdur. Digər tərəfdən isə dünya ixracının böyük hissəsi TMK-ların fırmadaxili əməliyyatlarının payına düşür.

Hazırda TMK-lar bu və ya digər ölkənin dünya təsərrüfat sistemində yerini müəyyən edən amilə çevrilirlər. Belə ki, TMK-ların istehsal, investısıya və tıcarət fəalıyyəti onlara imkan verir ki, dünya miqyasında istehsalın yerləşdirilməsində, malların bölüşdürülməsində və yayılmasında yaxından iştirak etsinlər. Mütəxəssislərin fıkrincə isə, bu, dünyada baş verən inteqrasiya proseslərinə böyük təsir göstərir. BMT ekspertləri belə bir nəticəyə gəlmişlər ki, müasir TMK-lar artıq dövlət maraqları dairəsində olan sahələrə miidaxilə etməkdədir. Beləliklə də, TMK-ların başçılığı ilə dünya iqtisadiyyatının bütünlüklə inteqrasiyaya yönəldiyini müşahidə etmək olur. Buradan da belə bir nəticə çıxarmaq olar ki, müasir dövrdə TMK-ların fəaliyyəti maksimum mənfəət alındığı sahələrdə beynəlxalq iqtisadi inteqrasiyanın güclənməsinə və beynəlxalq iqtısadı münasibətlərin qioballaşmasına aparır. Başqa sözlə, TMK-larn fəaliyyətinin güclənməsi təsərrüfat həyatının beynəlmiləlləşməsini daha da gücləndirir [5, 98].

Beləliklə, bu qənaətə gəlirik ki, müasir dövrdə ETT-nin (Elmi-Texniki Tərəqqi) təsirilə istehsal, telekommunikasiya, ticarət, xidmət və s. sferalarda baş vermiş obyektiv irəliləyişlər və TMK-ların fəaliyyətinin güclənməsi dünya təsərrüfatını mal və xidmətlərin, kapitalın, işçi qüvvəsinin, elmi-texniki biliklərin vahid bazarına çevirir. Mahiyyət etibarı ilə bu proses beynəlmiləlləşmənin daha yüksək mərhələsidir.

XX əsrin ikinci yarısında təsərrüfat həyatının beynəlmiləlləşməsinin dərınləşməsi nəticəsində dünya təsərrüfatının inkişafının yeni mərhələsi iqtisadi inteqrasiya prosesləri meydana çıxmışdır. İqtisadi inteqrasiya milli iqtisadiyyatların istehsal proseslərinin qarşılıqlı əlaqəsinin güclənməsini, dövlətlər arasında razılaşdırılmış iqtisadi siyasətlər həyata keçirilməsini, regional inteqrasiya biliklərinin yaradılmasını nəzərdə tutur. Bunun nəticəsində dünya təsərrüfat sistemi keyfiyyətcə yeni mərhələyə qədəm qoyur, dünya iqtisadiyyatının bütövləşməsi prosesi gedir [6, 110].

Tədqiqatlar göstərir ki, dünya təsərrüfat sisteminin inkişafının müasir mərhələsində baş verən keyfiyyət dəyişikləri onun qloballaşmasına səbəb olur. Qloballaşma prosesi, ilk növbədə, malların və xidmətlərin sərhədlərarası hərəkətinin və kapitalın beynəlxalq axınlarının həcminin, növ müxtəlifliyinin və formalarının artması, habelə texnologiyaların getdikcə sürətlənən və genişlənən diffuziyası hesabına bütün dünya ölkələrinin qarşılıqlı iqtisadi asılılığının artması kimi başa düşülür. Qlobal iqtisadi sistemin ayrı-ayrı subyektlərinin inteqrasiyası sadəcə ənənəvi şəkildə başa düşülən BƏB əsasında deyil, həm də öz miqyası etibarı ilə nəhəng istehsal-satış strukturları, qlobal

maliyyə sistemi və ümumdünya miqyaslı informasiya şəbəkəsi əsasında həyata keçirilir. Dünya iqtisadi məkanında məhsuldar qüvvələrin yerləşdirilməsi coğrafiyası, investisiyaların və istehsalın sahə strukturu təsərüfat fəaliyyətinin subyektləri tərəfindən qlobal konyuktur nəzərə alınmaqla müəyyən edilir, iqtisadi yüksəliş və böhranlar isə bütün dünya ölkələrini əhatə edir.

Qloballaşma prosesinin müasir mərhələsinin başlıca xarakterik xüsusiyyəti dünya miqyasında vahid təkrar istehsalın təşəkkülü prosesinin başlanmasından və getdikcə güclənməsindən ibarətdir. Başqa sözlə, hazırda dünya miqyasında müxtəlif iqtisadi blokların istehsal və tədavül sferaları da daxil olmaqla beynəlxalq təkrar istehsalda birləşməsi prosesi gedir. İƏİT-na görə, qloballaşma ilk növbədə istehsalçılar üçün şərtlərin əhəmiyyətli dərəcədə yaxşılaşması deməkdir. Belə ki, qloballaşma şəraitində mallar, o cümlədən istehsal amilləri-kapital, əmək və EET-nin nailiyyətləri daha sərbəst hərəkət edir və bunun nəticəsində istehsal xərcləri aşağı düşür. Qlobal iqtisadiyyatda rəqabət güclənir. Müəssisələr güclü rəqabət şəraitində fəaliyyət göstərir. Bu da ilk növbədə istehlakçılar üçün sərfəlidir. Qloballaşma həm də səmərəliliyin daim yüksəldilməsini, istehsalın daim təkmilləşdirilməsini tələb edir [7, 243].

Müasir dövrdə dünya təsərrüfat sistemində ümumi qloballaşma meyli ilə əlaqədar olan və özünə diqqət tələb edən bir meyl də yaranmışdır. Söhbət regional iqtisadi bloklar yaradılması və regional inteqrasiya meyllərinin güclənməsindən gedir.

Bu zaman qloballaşma ilə bu meyl arasında ziddiyyətin mövcudluğuna, onların paralel inkişafının son nəticədə güclü regional qruplaşmalar arasında iqtisadi müharibə təhlükəsinin yaradacağına dair suallar meydana çıxır.

Aparılan tədqiqatlar göstərir ki, müasir dövrdə qloballaşma meyli daha qabarıq nəzərə çarpır. Qeyd etdiyimiz kimi, müasir dövrdə qloballaşma dünya iqtisadiyyatının inkişafında keyfiyyətcə yeni mərhələ olmaqla vahid qlobal bazarın yaranmasına xidmət edir. Hazırda qloballaşma iqtisadi həyatın bütün sferalarını, o cümlədən elmi-tədqiqat, sənaye, xidmət, maliyyə və s. sahələri əhatə edir.

Tədqiqatlar göstərir ki, artıq qlobal inteqrasiyanın qarşısını heç bir regionallaşma meyli ala bilmir. Əksinə, regional inteqrasiyanın sürətlənməsində bir amil kimi çıxış edir. Belə ki, dünyanın müxtəlif bölgələrində yaranan regional və regionlararası iqtisadi birliklər qloballaşma prosesinin-dərinləşməsi üçün şərait yaradır. Doğrudan da, müasir regional blokları nəzərdən keçirsək, heç də onların «möhkəm qala» olmadığını görərik. Onlar digər ölkələr üçün də açıqdırlar. Bunun bariz nümunəsi kimi Avropa İttifaqını göstərmək olar. Əgər fəaliyyətinin ilk dövrlərində bu birlikdə cəmi 6 ölkə birləşirdisə, hal-hazırda onun 27 üzvü vardır və digər Avropa ölkələri də bu birliyə üzv olmağa çalışırlar.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, regional birliklər region daxilində özünü təminat üçün deyil, beynəlxalq ticarətdən daha çox gəlir götümıək məqsədilə yaradılırlar.

Ən nəhayət, bu gün dünyada mövcud olan regionallaşma meylləri XX əsrin 30-cu illərinin ikitərəfli sazişlərilə tənzimlənən regionallaşma meyllərindən köklü surətdə fərqlənir. Müasir regional inteqrasiya liberallaşmaya və dünya iqtisadiyyatına açılmağa meyllidir.

Ümumiləşdirmə apararaq, bu nəticəyə gəlmək olar ki, qloballaşma prosesi müasir dövrdə beynəlxalq iqtisadi münasibətlərin əsas meyli olmaqla dünya iqtisadiyyatının təkamülünün obyektiv nəticəsidir və ilk baxışda bir-biri ilə ziddiyyət təşkil edən qloballaşma və regionlaşma meylləri son nəticədə bir-birini tamamlayaraq dünyada vahid iqtisadi məkanın yaradılmasına xidmət edir. Belə ki, ilk əvvəl milli iqtisadiyyatların regional səviyyədə çulğalaşması və sonradan regional birliklər arasında əməkdaşlığın güclənməsi nəticəsində dünya təsərüfatı vahid orqanizmə çevrilir. Beləliklə də, milli iqtisadiyyataların nisbi müstəqilliyinə baxmayaraq, dünya təsərrüfatın vahid orqanizm olması ideyası tədricən özünü doğruldur [8, 107].

Dünya təsərüfat sistemində baş verən qloballaşma və regional iqtisadi inteqrasiya meylləri ilə yanaşı, son illərdə imperiyaların dağılması, yeni müstəqil dövlətlərin yaranması prosesləri də genişlənmişdir. Bu proseslər mahiyyət etibarı ilə milli dövlətlərin iqtisadi müstəqillik əldə etməsi üçün mərkəzdənqaçma meyllərini əks etdırsə də, nəticə etibarı ilə bu meyl özü də təsərrüfat həyatının beynəlmiləlləşməsinin güclənməsinə və dünya təsərüfatının qloballaşmasına xidmət edir. Belə ki, imperiyalar, adətən, dünya təsərrüfat sistemi ilə məhdud əlaqələrə malik olan qapalı xarakterli iqtisadiyyat formalaşdırmağa meylli olurlar. Odur ki, onların süqutu nəticəsində müstəqillik əldə edən dövlətlər tezliklə bütöv milli iqtisadiyyatlarını formalaşdırmağa və səmərəli şəkildə dünya təsərrüfat sisteminə inteqrasiya olunmağa can atırlar. Beiəliklə də, dünya təsərrüfat sisteminin bütövləşməsi və beynəlxalq iqtisadi münasibətlərin qloballaşması prosesləri daha da güclənir.

Bütün bunlar göstərir ki, müasir dövrdə dünya təsərrüfat sistemində çox mürəkkəb və bəzən də ziddiyyətli proseslər gedir və bu proseslər dünya miqyasında aşağıdakı kimi fundamental dəyişikliklərlə müşaiyət olunur: ETT-nin sürətlənməsi; qlobal iqtisadi problemlərin kəskinləşməsi; dünya maliyyə-kredit sistemində baş verən böhranların intensivləşməsi; ayrı-ayrı ölkələrin milli iqtisadiyyatlarının və iqtisadi siyasətlərinin qarşılıqlı asılılığının güclənməsi; müxtəlif ölkələrin iqtisadi inkişaf səviyyəsinin tarazlaşdırılması və yaxınlaşdırılması meyllərinin güclənməsi; dünya miqyasında sənayenin və maliyyənin təmərküzləşməsi, ayrı-ayrı TMK-lar arasında texnoloji birliklərin yaranması; dünyanın əksər ölkələri tərəfindən qəbul edilən universal iqtisadi, mədəni, mənəvi, hüquqi, humanitar dəyərlərə əsaslanan konvergensiya proseslərinin güclənməsi və s. [9, 83].

Yuxarıda şərh olunanlardan göründüyü kimi, müasir qloballaşma şəraitində dünya təsərrüfat sistemində və beynəlxalq iqtisadi münasibətlərdə, bir tərəfdən anarxiya, digər tərəfdən oliqarxiya meylləri güclənir, həm də dünya iqtisadiyyatının qlobal problemləri kəskinləşir.

Bütün bunlar göstərir ki, hazırda dünya təsərrüfat sistemində gedən qloballaşma prosesinin tələblərinə cavab verən mükəmməl tənzimlənmə sisteminin yaradılması aktual bir problemə çevrilmişdir. Bunun üçün vahid prinsiplərə əsaslanan qlobal iqtisadi və siyasi qanunvericiliyin və beynəlxalq tənzimləmə institutlarının yaradılması vacibdir. Bunsuz dünya iqtisadiyyatının səmərəli inkişafına nail olmaq qeyri-mümkündür [10, 320].

Bütün dünya ölkələri üçiin vahid prinsiplərə əsaslanan iqtisadi və siyasi qanunvericiliyin, beynəlxalq tənzimləmə institutlarının yaradılması heç də yeni ideya deyil. Lakin yalnız son dövrlərdə bu ideya dünya təsərrüfatında gedən qlobal proseslərin daxili inkişafının məntiqi nəticəsi kimi çıxış edir və aşağıdakılarla şərtləndirir.

- birincisi, dünya miqyasında siyasi, o cümlədən iqtisadi sabitliyin təmin edilməsi gələcək sabit inkişafın obyektiv əsasıdır;

- ikincisi, müasir mürəkkəb beynəlxalq şəraitdə ayrı-ayrı ölkələrin bu istiqamətdə həyata keçirdiyi tədbirlər yüksək səmərəliliyi ilə seçilmir;

- üçüncüsü və ən əsası, dünya təsərrüfat sisteminin qloballaşması prosesi özünün idarəolunmazlığı ilə bütün ölkələri narahat edir.

Doğrudur, artıq təsərrüfat fəaliyyətinin idarə olunmasının dünya miqyasında bütün ölkələr üçün eyni olan mexanizmləri və onlara uyğun institusional qurumlar yaradılması istiqamətində müəyyən işlər görülmüşdür. Lakin tədqiqatlar göstərir ki, bu sahədə görülən bütün dünya ölkələri üçün vahid prinsiplərə əsaslanan iqtisadi və siyasi qanunvericiliyin yaradılması ideyasının tam həcmdə gerçəkləşməsi üçün çox azdır. Bunun üçün bütün ölkələrin səylərinin birləşdirilməsi, o cümlədən ayrı-ayrı ölkələrdə xarici iqtısadi fəaliyyətin milli tənzimləmə sistemlərinin beynəlxalq iqtisadi münasibətlərin dünya miqyasında tənzimlənməsinin ümumi qaydalarına uyğunlaşdırılması tələb olunur. ÜTT-nin təsis edilməsi və ona əlavə olunan çoxtərəfli sazişlər paketinin qəbul ediləməsi bu prosesin sürətlənməsi üçün əlverişli şərait yaratmışdır.

Hazırda dünyanın bütün ölkələrində xarici iqtisadif fəaliyytəin dövlət tənzimlənməsi sistemləri mövcuddur. Bu sistemlərin ayrı-ayrı ölkələrdə müəyyən fərqli cəhətlərə malik olmalarına baxmayraq, onların ümumi faəliyyət prinsipləri mövcuddur ki, bunlara:

1. Dövlət suverenliyi prinsipi.
2. Xarici iqtisadi fəaliyyətlə məşgul olmağın azadlığın prinsipi.
3. Xarici iqtisadi fəaliyyətin iştirakçılarının hüquq bərabərliyi və onlara münasibətdə ayrı seçkilik etməmək prinsipi aiddir.

### ƏDƏBİYYAT


1. Məhərrəmov A., Aslanov H. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı: BDU, 2008, 399 s.
2. Məhərrəmov A. İqtisadi diplomatiya. Bakı, 2009, 380 s.
3. Məmmədov M. Beynəlxalq iqtisadi münasibətlərin bəzi məsələləri. Bakı: Nurlan, 2008, 230 s.

4. Əliyev A., Şəkərəliyev A. Bazar iqtisadiyyatına küçid, dövlətin iqtisadi siyasəti. Bakı, 2002, s.340.
5. Əliyev A., Şəkərəliyev A. Dünya iqtisadiyyatı müasir dövrün problemləri. Bakı, 2003, 520s.
6. Əliyev A. Azərbaycan xarici ticarət-iqtisadi əlaqələri. Bakı: Ozan, 2004, 216 s.
7. Abbasov C. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları. Bakı, 2005, 310 s.
8. Musayev A. Qloballaşma şəraitində Azərbaycanın dünya maliyyə bazarlarına inteqrasiyası. Bakı, 2006, 420 s.
9. Bayramov Ə., Hacıyev Ş. Beynəlxalq iqtisadiyyat. Bakı, 1998, 168 s.
10. Ломакин В. Мировая экономика. М. 2006, 620 с.

## ОСОБЕННОСТИ РЕГУЛИРОВАНИЯ И ГЛОБАЛЬНЫЕ АСПЕКТЫ МЕЖДУНАРОДНЫХ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ

**Г.Г.АСЛАНОВ**

### РЕЗЮМЕ

Среди стран мира, на современном этапе развития экономических отношений, а также происходящих качественных изменений становятся причиной глобализации. В глобальной экономике конкуренция сильна. Она, будучи качественно новым этапом в развитии мировой экономики способствует образовании единого глобального рынка. Глобализация охватывает все стороны жизни. Это, в свою очередь, создает определенные проблемы мировой экономике. В такой ситуации, формирование совершенной системы регулирования процесса глобализации, отвечающей требованиям мировой хозяйственной системы, остается актуальным вопросом. Без этого достичь эффективного развития мировой экономики не возможно.

**Ключевые слова:** международные экономические отношения, экономическая стратегия, экономическая глобализация, глобальные экономические проблемы, регулирование

## FEATURES OF REGULATION AND GLOBAL ASPECTS OF INTERNATIONAL ECONOMIC RELATIONS

**H.H.ASLANOV**

### SUMMARY

Among the world countries, at the present stage of development of the economic relations, quality changes stipulate globalization. In global economy competition is strong. This, in turn, being a qualitatively new stage in the development of world economy promotes education, uniform global market. Globalization covers all aspects of life. This, in turn, creates certain problems for world economy. In such a situation, formation of a perfect system of the regulation of globalization process meeting the requirements of the world economic system, remains a topical issue without which the effective development of world economy seems impossible.

**Key words:** international economic relations, economic strategy, economic globalization, global economic problems, regulation